# Sülh üçün son şans?

## Sabin Freyzer

2005-ci ilin payızında Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsi heç vaxt bu qədər yaxın olmamışdır. Lakin bu danışıqları da iflas gözləyirmi? Əgər belə olarsa, bu dəfə tam-miqyaslı hərbi əməliyyatların yenidən başlaması ehtimalı çox real ola bilər. Hərbi xərclərin artması, atəşkəsin tez-tez pozulması və əks tərəfdən düşmən rəmzinin yaradılması - bütün bu amillər danışıqlar üçün vaxtın az olduğuna işarə edir.

2004-cü ilin mayından Ermənistan və Azərbaycanın xarici işlər nazirləri Praqa prosesi adlanan formatda bir neçə dəfə görüşüblər. Hər iki ölkənin prezidenti üz-üzə görüşlərində əldə etdikləri irəliləyişdən razı qaldıqlarını ifadə etmişlər. 2005-ci ilin avqustunda Minsk Qrupunun həmsədrləri prezidentlərin diqqətinə çox güman ki, münaqişənin tənzimlənməsinin qısa strategiyasını açıqlayan bir səhifəlik sənəd təqdim etdilər. Əgər tərəflər danışıqları bu sənəd əsasında aparalarsa, hərtərəfli sülh sazişi artıq 2006-cı ildə hazır ola bilər.

Tərəflərin mövqeləri indiyə kimi görünməmiş dərəcədə bir-birinə yaxındır, çünki həm Ermənistan, həm də Azərbaycan istənilən nizamlama variantının mərhələli həllinin zəruriliyini qəbul ediblər. Dağlıq Qarabağın son statusu yalnız etimadın artırılması üzrə tədbirlər və təhlükəsizlik zəmanətləri yerlərdə nəticə verdikdən sonra təyin edilə bilər. Ermənistanın yardım etdiyi Qarabağın erməni qoşunları bütün, və yaxud əksər işğal edilmiş ərazilərdən çıxarılacaq. Onların əvəzinə beynəlxalq sülhməramlı qüvvələr yerləşdiriləcək, məcburi köçkünlər öz yurdlarına qayıdacaq, ticarət əlaqələri və kommunikasiya xətləri bərpa ediləcəkdir. Yalnız bundan sonra - on, on beş və ola bilsin ki, hətta iyirmi il sonra Dağlıq Qarabağın statusu beynəlxalq toplumun tanıdığı və Qarabağ erməniləri və azərbaycanlılarının müstəsna iştirakı ilə keçiriləcək referendumda müəyyən ediləcək. Həmin vaxta kimi Dağlıq Qarabağ *de yure* Azərbaycanın tərkibində, *de fakto* isə, müstəqil qurum kimi qalacaq.

Danışıqlar iştirakçıları keçmişdə də Qarabağ məsələsinin həllinə yaxın olmuşdular. 2001-ci ildə Ki-Uest danışıqlarından sonra hərtərəfli sülh sazişinin imzalanması real görünürdü. Lakin danışıqlar çıxılmaz vəziyyətə düşdü. Danışıqlar prosesinin iflasa uğramasını izah etməyə çalışan Minsk Qrupunun sabiq həmsədrlərindən biri Keri Kavanonun fikrincə, "prezidentlər öz xalqlarını qabaqladılar". Lakin daha inandırıcı izah ondan ibarətdir ki, Ermənistan və Azərbaycan rəhbərlərinin açıq dedikləri və həqiqətən nə fikirləşdikləri arasında böyük fərq var idi. Elə bu gün də həmin vəziyyət dəyişməyib. Praqa prosesinin tədricən irəliləməsinə baxmayaraq, Bakı, Yerevan və Stepanakertdə xalqları sülhə hazırlamaq üçün demək olar ki, heç bir iş görülmür. Regional elitalar çoxdan bəri "sərt mövqe - yüksək siyasi reytinq" prinsipinə əməl edirlər.

Əgər münaqişənin əvvəlində etnik səbəb o qədər də böyük əhəmiyyətə malik deyildisə, sonradan qarşılıqlı nifrəti artırmaq üçün rəsmi təbliğat yaxşıca işləmişdi. Hər iki xalq qantökmənin və hərbi əməliyyatların yeni mərhələsinin başlanması üçün psixoloji cəhətdən hazırlanıb. Azərbaycanda sığınacaq tapan yarım milyondan artıq məcburi köçkün müharibə tərəfdarlarının əsas hissəsini təşkil edir. Bakı Mətbuat Klubunun 2004-cü ildə keçirdiyi sorğuya əsasən, məcburi köçkünlərin 84%-i münaqişənin güc yolu ilə həll edilməsini dəstəkləyir.

Neft gəlirlərinin sürətlə artması Azərbaycanda daxili vəziyyətin dəyişməsinə səbəb olmuşdur. 2005-ci ilin iyulunda Azərbaycan prezidenti İlham Əliyev hərbi büdcənin 2003-cü ildən bəri 135 milyon ABŞ dollarından 2005-ci ildə 300 milyon dollara kimi artmasını bəyan etdi. Ermənistan rəhbərliyinin eyni addımı atacağı barədə cavabından sonra Bakı hərbi xərclərin 2006-cı ildə 600 milyon dollara çatdırılacağına söz verdi. Davam edən blokadadan əziyyət çəkən və regional layihələrdən məhrum olan Ermənistan Azərbaycanla hərbi məsrəflərdə rəqabət aparmaq imkanında deyil. Türkiyədə və ya türk təlimatçılarının rəhbərliyi altında hərbi təlim keçmiş Azərbaycan zabitlərinin yeni nəsli və Azərbaycan hərbi kontingentinin İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməsi Azərbaycan silahlı qüvvələrinin hərbi hazırlığının yüksəlməsində öz rolunu oynamışdır. Uzun illər baxımsızlığa məruz qalan Azərbaycan ordusu hələ köhnəlmiş silahlar, korrupsiya, hərbi əməliyyat idarəçiliyinin zəifliyi, proqram və büdcələrin tərtibi kimi problemləri həll etməlidir, lakin əgər zəfər çalmaq məqsədi ilə hərbi islahatları aparmaq üçün həqiqi iradə olarsa, vəziyyət tezliklə dəyişə bilər.

Öz ərazi bütövlüyünü bərpa etmək üçün Azərbaycanın silaha əl atmaq təhlükəsi kifayət qədər realdır. Ermənistanda sərt xətt tərəfkeşləri israr edirlər ki, Ermənistan qoşunlarının Dağlıq Qarabağ ətrafındakı təhlükəsizlik bölgəsindən çıxarılması intihara bərabərdir. Lakin Azərbaycanın sürətlə silahlanması fonunda Azərbaycan ərazilərinin davam edən işğalı Bakıya hücum etmək üçün haqq qazandırır.

Bu gün Stepanakert üçün təhlükəsizliyin ən doğru zəmanəti erməni qoşunlarının çıxarılması ola bilər. Əgər Dağlıq Qarabağ işğal edilmiş ərazilərdən öz qoşunlarını geri çəkərsə, və bu qoşunların əvəzinə bölgəyə sülhməramlı qüvvələr yeridilərsə, Azərbaycan beynəlxalq səviyyədə qəbul edilmiş sülh sazişinin şərtlərinə uyğun olaraq silahdan istifadə etməkdən çəkinməyə məcbur olacaq. Azərbaycanın belə bir sazişi pozub hücuma keçməsi onun neft hasilatçısı kimi beynəlxalq əlaqələrinin qırılmasına, neft və qazın təhlükəsiz ixracının uzun illər itirilməsinə səbəb ola bilər.

Sülh sazişini yaxın gələcəkdə imzalamaq həm Bakının, həm də Yerevanın marağındadır. Əks halda savaşın qarşısını almaq üçün onların şansı olmayacaq.

**Sabin Freyzer Beynəlxalq Böhran Qrupunun Qafqaz Layihəsinin rəhbəridir.**